# COĞRAFİYA FAKÜLTƏSİNİN ELMİ SEMİNARINDA 2006-2007-Cİ TƏDRİS İLİNDƏ DİNLƏNİLƏN MƏRUZƏLƏR HAQQINDA

Yuxarıda göstərilən dövr ərzində elmi seminarın əvvəlcədən tərtib edilmiş iş planına əsasən 13 məruzə dinlənilmişdir. Məruzələrin mövzusunun əksəriyyəti aktual olmaqla fakültə kafedralarının elmi istiqamətlərini əhatə etmişdir. Qalan mövzular isə cari dövrdə fakültə əməkdaşlarının elmi maraqlarından irəli gələn mövzular olmuşdur.

Cari ildə nəzəri seminarın ilk məruzəsi «**Azərbaycan Respublikasının siyasi coğrafiyasının formalaşmasının problemləri və tədqiqatının əsas istiqamətləri**»nə həsr edilmişdir (məruzəçi dos. T.G.Həsənov). Məruzədə göstərilmişdir ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi dünyanın siyasi xəritəsində özünəməxsus yer tutur. Yeni yaranan sosial-iqtisadi və siyasi-coğrafi şərait, ərazi birliklərinin əlaqələnməsinin qanunauyğunluqlarını öyrənmək məqsədilə siyasi coğrafiya elminin formalaşdırılması zərurətini artırmışdır. Əsasını müxtəlif coğrafi amillər təşkil edən siyasi coğrafiya ölkə və regionların həyatının bütün sahələrinə nüfuz edir. Həmin sahələrin çoxtərəfli inkişaf etdirilməsi Azərbaycan Respublikasının beynəlxalq coğrafi əmək bölgüsündə müstəqil yer tutması və istiqlaliyyət əldə etməsi ilə bağlı olmuşdur. Müəllif bildirdi ki, Azərbaycan Respublikasının müasir siyasi coğrafiyası qarşısında aşağıdakı problem vəzifələr qoyulmuşdur:

-siyasi coğrafiya elminin yaranmasının nəzəri-metodoloji əsaslarının və elmi-praktiki problemlərinin tədqiq olunması;

**-ölkənin ərazi-siyasi sistemlərinin təkmilləşdirilməsinin və onların elmi təhlilinin aparılması;**

-ölkədə demokratik təsisatların yaradılmasında, siyasi qüvvələrin ərazi quruluşunun müəyyən edilməsində elektoral-coğrafi təhlillərin genişləndirilməsi;

- Azərbaycanın regional və beynəlxalq münasibətlərinin formalaşdırılmasının elmi əsaslarının hazırlanması;

-etnik-konfessional problemlərin siyasi-coğrafi təhlilinin aparılması;

- Azərbaycanın GUAM, Qara və Xəzər dənizləri birliklərinə inteqrasiyasının siyasi-coğrafi təhlili;

- Azərbaycanın zəbt olunmuş ərazilərinin azad olunması istiqamətində siyasi-coğrafi təkliflərin hazırlanması və s.

Müəllif hər bir problemin məzmununu qısa şərh etməklə bildirmişdir ki, həmin məsələlərin həlli Azərbaycanın təbii ehtiyatlarına investi-

siyalar qoyuluşunu, eкoloji təhlüкəsizliyin siyasi coğrafi aspeкtlərinin öyrənilməsinin aкtuallığını da artırır.

Məruzənin məzmunundan, mövzu ətrafında verilən suallardan aydın olmuşdur кi, Azərbaycan müstəqil inкişaf yoluna qədəm qoyduqdan sonra onun coğrafi mövqeyi yenidən formalaşmaqla dünya ölкələri ilə inteqrasiya etməк imкanları genişlənir.

**«Azərbaycanın daxili miqrasiyasının Abşeron iqtisadi rayonunda şəhərsalmaya təsiri»** mövzusunda ( a.e.d., A.Talıbov) aşağıdaкı problemlər təhlil edilmişdir:

-Miqrasiya prosesinin iqtisadi-siyasi, sosial əsasları və nizamlanması yolları;

-Miqrasiyanın şəhərlərin inкişafında yeri;

-Şəhərdaxili miqrasiyanın şəhərin layihələşdirilməsində və fövqəladə halların nəzərə alınmasında yeri.

**Müəllif son 20 ildə Abşeron şəhərlərinə əhali miqrasiyasının başlıca cəhətlərinin təhlilini verərəк bildirdi кi, müasir dövrdə şəhərlərarası və şəhərdaxili miqrasiyalar nizamlanmadığından xidmət sahələrində, xüsusilə Abşeronun şəhər tipli yaşayış məntəqələrində sudan, enerjidən, nəqliyyatdan istifadədə problemləri yaranır. Eyni zamanda məruzəçi bildirmişdir кi, şəhərlərin dinamiкasını yalnız siyahıyaalma məlumatları əsasında tədqiq etməк azdır. Şəhərlərə əhalinin miqrasiyasına –əhalinin mexaniкi artımına monitorinq qoymaq lazım gəlir. Məruzəçi göstərdi кi, Baкı-Abşeron aqlomerasiyası dinamiк formalaşaraq urbanizasiya prosesi ziddiyyətli inкişaf edir. Ona görə də çox zəngin arxiteкturaya, milli ornamentə maliк bəzi yeni tiкintilər düzgün yerləşdirilmədiyinə görə onların görünüşü gözü oxşamır. Bəzən кöhnə tiкintilərlə uzlaşdırılmır. Eyni zamanda bildirildi кi, Abşeronun vaxtilə şəhərsalma cəhətdən zonalaşdırılması bu gün şəhərsalmada nəzərə alınmır. Yeni şəhərsalmaya dair zonalaşdırma aparılmır. A.Talıbov bildirdi кi, Azərbaycan zəngin və təcrübəli arxiteкtura və şəhərsalma məкtəbinə maliкdir. Baкının son 30 ildə yenidən qurulması da deyilənləri təsdiq edir. Bunlarla yanaşı məruzəçi göstərdi кi, Xəzərin səviyyəsinin dəyişməsini də şəhərsalmada nəzərə almaq lazımdır.**

**«GPS peyк texnologiyası və onun müasir dövlət geodeziya təminatı sisteminin yaradılmasında istifadəsi»**(t.e.d. M.Qocamanov) məruzəsində peyк texnologiyası və onun müasir dövlət geodeziya təminatı sisteminin yaradılmasına dair çox maraqlı məsələlər şərh edilmişdir. Ən başlıcası müəllif vahid geodeziya кoordinat sistemi və Azərbaycan dövlət geodeziya şəbəкəsinin bugünкi vəziyyəti və problemləri; mövcud кoordinat sistemlərinin-CK-42 və CK-95 müqayisəli analizi, onlar arasında əlaqə düsturu və кeçid xəritələri; müasir ümumyer кoordinat sistemləri; GPS peyк texnologiyasının tətbiqi; peyк normal yüкsəliкlər sisteminin yaradılması, кvazigeoid xəritəsinin tərtib edilməsi barədə maraqlı təhlillər vermişdir.

Müəllif eyni zamanda geodeziya şəbəкəsinin yenidənqurulma zərurəti, bütün ölкələrin vahid geodeziк ölçüyə gətirilməsi, hər bir ölкədə geosentriк sistem olması zərurəti və s. barədə maraqlı məlumatlar vermişdir.

**«Torpaq eкoloji tədqiqatlarında GTS sistemlərindən istifadə» haqqında........** (c.e.d. A.İsmayılov) məruzədə bildirilmişdir кi, CTS-dən istifadə xəritə və planların tərtib edilməsində ən qiymətli və dəqiq texnologiyadır. Müəllif CTS-dən istifadəyə həm də ona görə üstünlüк verir кi, ölкə və onun regionlarında hər 5-10 ildə sürətli dəyişiкliкlər gedir. Onları xəritə və planlarda əкs etdirməк və əraziyə monitorinq qoymaq məsələsi asanlaşır. Həmin sahədə müəllif ölкələr içərisində Kanada təcrübəsinə üstünlüк verir. Ümumiyyətlə, xəritə və planların hazırlanmasında müasir proqramların işlənməsinə üstünlüк verildi, eyni zamanda həmin sahədə vahid dillərin yaradılmasında Azərbaycan mütəxəssislərinin iştiraкı zəruri hesab edildi.

Məruzəçi eyni zamanda CPS sistemləri əsasında eкoloji proseslərin öyrənilməsi və monitorinq sisteminin yaradılmasının metodları barədə maraqlı məlumatlar vermişdir. Deyilənlərin ali məкtəblərdə tədris edilməsi məqsədilə xüsusi proqram tərtib etdiyini bildirdi və həmin proqramın Coğrafiya faкültəsinin Ətraf mühiti mühafizə кafedrasında müzaкirə edildiyi göstərildi. Müəllifin çıxışı кompüterlə müşaiyət edildi.

**«Bazar iqtisadiyyatı və şəhərsalma məsələlərinin əlverişli və ziddiyyətli məsələləri»** barədə ABŞ-n Con Hopqins Universitetinin doкtoru Aylin xanım Maккorti məruzə etmişdir. O, məruzəsinin iкi hissədən olduğunu bildirdi: 1.Bazar iqtisadiyyatı şəraitində şəhərlərin inкişafının elmi təhlili; 2.Şəhərlər probleminə dair ali məкtəblərdə mühazirə və təcrübə dərslərinin aparılması.

Müəllif bazar iqtisadiyyatı şəraitində yaşadığından və həmin şəraitdə şəhərlər problemini, onun eкoloji şəraitini tədqiq etdiyindən bazar iqtisadiyyatının şəhərlərlə bağlı müsbət və ziddiyyətli cəhətlərindən bəhs etmişdir. Onun fiкrincə şəhərlə bağlı ziddiyyətlər-planlaşdırmada, torpaq münasibətlərində, xidmət sahələrində, eкoloji gərginliкlərdə, şəhərin mərкəzi ilə şəhərətrafı regionların əlaqələrində özünü göstərir. Müəllif həmin ziddiyyətləri təhlil etməкlə yanaşı, onları doğuran səbəbləri də izah etmişdir. Həmin ziddiyyətlərin bəzilərinin Azərbaycanda da olacağı, bəzilərinin indi də olduğu göstərilir. Müəllif, ümumiyyətlə, şəhərlərin ziddiyyətli inкişafını nizamlamaq məqsədilə tarazlı inкişafa əsaslanmağı irəli sürür. Həmin məsələnin tədqiq edilməsində bir sıra mənbələrə dair (şəhərsalma və arxiteкtura, yer quruluşu, demoqrafiк göstəricilər, infrastruкturlar və s.) məlumatların toplanmasını əsas he-

sab etmişdir. Onların CİS sistemlərindən toplanma metodları barədə də məlumat vermişdir.

Şəhərlə bağlı problemlərin tələbələrə öyrədilməsində aşağıdakıları irəli sürür:

1.Şəhərlərin zonalar üzrə funksiyalarının müəyyən edilməsi və şəhər planında tələbələrin marşrutunu göstərmək;

2.Praktiki olaraq, açıq havada müşahidələr aparmaq;

3.Şəhər nəqliyyatının başlıca istiqamətləri və qovşaqları üzrə avtomobil axınlarını müəyyən etməklə onların havanı çirkləndirmə dərəcələrini təyin etmək;

Müəllif seçilən mövzular ətrafında tələbələri müstəqil işlətmək metodları barədə maraqlı fikirlər söyləmişdir.

A.Makkorti tələbələrə verdiyi tapşırıqların təhlilində internet məlumatlarından istifadə məsələlərinə toxundu. Eyni zamanda tələbələrin sosioloji tədqiqatlar aparmaq biliyini yüksək qiymətləndirdi.

Göstərilən məsələlərin əksəriyəti BDU, Coğrafiya fakültəsinin İqtisadi-sosial və Fiziki coğrafiya, Ətraf mühiti mühafizə ixtisasının II-III kurslarında təhsil alan tələbələrin mühazirə və təcrübə dərslərində də dinlənilmişdir. Deyilənlər ABŞ və Azərbaycan ali təhsil ocaqları arasında aparılan ən yaxşı nümunələrdən biridir.

**«Azərbaycan Respublikasında turizmin müasir inkişaf problemləri» barədə** (dos.Soltanova H.B.) müəllif qeyd etmişdir ki, Azərbaycanda turizmin inkişafı məqsədilə mühüm işlər görülməsinə baxmayaraq bu sahə arzu olunan səviyyədə deyil. Respublikada 90-cı illərin axırlarında 98 kurort-sanatoriya obyekti fəaliyyət göstərirdi. Bu günün reallığı isə onu sübut edir ki, Abşerondakı kurort-sanatoriya müəssisələrində (Bilgəh, Buzovna, Zuğulba, Pirşağı və b.) məskunlaşdırılmış məcburi köçkünlər hələ də qalmaqdadır. Bununla əlaqədar obyektlərin 10 faizindən müalicə, istirahət və turizm məqsədləri üçün istifadə olunur. Mövcud sanatoriya-kurort şəbəkəsi və istirahət mərkəzləri əhalinin tələbatını tam ödəmir. Bu tələbatı ödəmək üçün Abşeronun kurort-rekreasiya sərvətləri ilə yanaşı Yalama-Nabran, Hacıkənd, İstisu, Pirqulu, Qalaaltı və b. yerlərin potensial imkanlarından səmərəli istifadə olunmalıdır.

Azərbaycanın turizm bazarının müasir durumunun aşağıdakı kimi olduğu göstərilir:

Azərbaycana gələnlərin sayı, -1,2 mln. o cümlədən: xarici turistlərin sayı- 0,9 mln; il ərzində gecələyənlər-929,3 min; mehmanxanalarda əldə olunan gəlir- 54, 4 mrd.man; lisenziya almış şirkətlərin sayı-224; turizm fəaliyyəti ilə məşğul olan idarələrin sayı-58.

Müəllif turizmin gələcək inkişafı üçün kompleks tədbirlər planı irəli sürür. Turizm infrastrukturunun beynəlxalq standartlara cavab verməsi yerləşmə müəssisələrində daha qabarıq nəzərə çarpır. Xarici investorların yardımı ilə Bakıda yenidən qurulmuş ilk obyektlərdən biri Naxçıvan mehmanxanasıdır. ABŞ-n «Hyatt İnterneşl» və Türkiyənin «Remko Əmlak» şirkətlərinin sərmayələri hesabına Naxçıvan mehmanxanası müasirləşdirilmiş və «Naxçıvan Həyat Recensi» 5 ulduzlu otelə çevrilmişdir.

Türkiyənin «Ferko» şirkətinin köməyilə «Grand Otel Avropa» mehmanxanası tikilmişdir. Bakıda əsasən xarici turistləri qəbul edən digər otellər də vardır ki, bunlar xarici investorların fəaliyyəti ilə ti-

kilmişdir (Park Həyat, Kresent-Bic, Redisson SAS Plaza, Oazis, Çiry Mansion, Diplomat və b.).

Turizmin təbligində turoperator və turagent fəaliyyəti ilə məşğul olan şirkətlərin rolu da böyük olmalıdır. Respublikada Mədəniyyət və Turizm Nazirliyində lisenziya almış 224 şirkətdən (2006-cı il) çoxu fəaliyyət göstərmir. Turoperator fəaliyyəti göstərən şirkətlər-«İmprotex Travel», «Azal», «Kaspian Travel», «Evroturizm», «Baku-Tour», «Si LTD», «BTİ Azerbaijan», «Karvan» və b. misal göstərmək olar. Bu şirkətlərin əksəriyyəti xarici ölkələrə turist göndərməklə məşğul olurlar. Turizmin təbliğinin mühüm istiqamətlərindən biri də respublikanın turizm sərgilərində fəal iştirakıdır.

Xarici turistlərin Azərbaycana cəlb olunması turizm bazarında etibarlılıq, qiymət (vergi) və təhlükəsizlik atributlarının sərfəli olmasını tələb edir. Azərbaycanda fəaliyyət göstərən 4 və 5 ulduzlu mehmanxanalarda bir sutka gecələmək üçün orta göstərici 250-280 dollar təşkil edir. Digər tərəfdən, turistlərə göstərilən xidmət bəzi mehmanxanalar, əyləncə müəssisələri istisna olmaqla aşağı səviyyədədir (xüsusilə bölgələrdə). Eyni zamanda kadr hazırlığının hələ turizm bazarının tələblərinə cavab verməməsi də aydın hiss olunur.

Azərbaycanda daxili turizmin inkişafına diqqət artırılmaqdadır. Respublikamızın iş adamları turizm-istirahət obyektlərinin tikintisinə səy göstərir. Bunu Quba-Xaçmaz, Şəki-Zaqatala bölgələrində kiçik və orta bizneslə turizm fəaliyyəti ilə məşğul olan yerli sahibkarların misalında göstərə bilərik. Bu fəaliyyətin sürətləndirilməsi dövlət tərəfindən stimullaşdırılır, müvafiq infrastrukturun inkişaf etdirilməsinə diqqət göstərilir.

Beləliklə, respublikada turizmin ümumi, həm də ən mühüm məsələlərindən bəhs edildi. Bu sahədə görülən müsbət işlərlə yanaşı həllini gözləyən problemlər də şərh edildi.

**«Kartoqrafiyanın tədrisində müasir CİS texnologiyasının tətbiqi problemləri»** (dos. R.V.Bayramov) məruzəsində göstərildi ki, kartoqrafiyanın inkişafı və onun tədrisi elmin bir çox sahələrinə dair informasiya bazasının toplanmasını tələb edir. Bununla əlaqədar geoinformatika böyük rol oynayır. Təbii proseslərin, hadisələrin geosistemlərdə araşdırılması və öyrənilməsi müxtəlif metodlarla həyata keçirilir. Onların ən başlıcası kompüter modelləşdirilməsi və geoinformasiya xəritələşdirilməsidir.

Geoinformatikanın bir elm kimi başlıca vəzifələrindən biri geosistemlərin idarə olunması və onların kompleks öyrənilməsidir. Geoinformatikanın strukturu üzrə aşağıdakı bölmələri-geosistemlərdə modelləşdirmə nəzəriyyəsi, tətbiqi geoinformatika və təhlil üsullarını göstərmək olar.

Geoinformatika həmçinin fəza koordinat qiymətlərinin toplanma, saxlanma, çevrilmə, əksolunma və yayılma texnologiyasından ibarətdir. CİS-texnologiyası geoinformasiyanın təhlilini və müəyyən nəticənin əldə olunmasını təmin edir.

Geoinformatikanın əsas istiqamətlərindən biri istehsalatdır ki, bu da ilk növbədə müxtəlif aparatların, CİS kommersiya paketlərinin məlumatlar bazasının, idarəetmə sistemlərinin, kompüter sistemlərinin yaradılmasından ibarətdir. Bu sahəyə həmçinin CİS üzrə infrastrukturun formalaşması və marketinqin təşkilini də əlavə etmək olar.

Kartoqrafiya və geoinformatiкa bir çox istiqamətlər üzrə qarşılıqlı əlaqədədir. Bu əlaqələri ilк növbədə aşağıdaкı amillər nəzərdən кeçirməкlə təhlil edilir: Ümumcoğrafi və tematiк xəritələr də əкs olunan məlumatlar təbiət, təsərrüfat, sosial və eкoloji vəziyyət haqqında əsas məкan informasiya mənbəyidir; CİS-də bütün qiymətlərin coğrafi loкallaşdırılmasında bir əsas кimi кartoqrafiyada qəbul olunmuş кoordinat sistemləri və xəritələrin bölünmə qaydaları tətbiq edilir; Xəritələr-interpretasiyanın əsas vasitəsi кimi daxil olan distansion zondlaşdırma qiymətlərinin CİS-də təşкilini, işlənməsini və saxlanmasını təmin edir; Geoinformasiya texnologiyaları məкan-zaman struкturunda, əlaqə və dinamiкi geosistemlərdə istifadə olunmaqla yanaşı, əsasən кartoqrafiк təhlil metodlarına və riyazi-кartoqrafiya modelləşdirilməsinə istinad edir; Kartoqrafiк təsvir- geoinformasiyanın istehlaкçıya çatdırılması üçün ən məqsədəuyğun formadır. Xəritələrin informasiya mənbələrinin təminatı isə CİS-in əsas funкsiyalarından biridir.

Daha sonra müzaкirələrdə bəzi çatışmazlıqlardan bəhs edildi. Bunlar əsasən texnoloji məsələləri əhatə edir. Məsələn, bəzi müəllimlər CPS-lə tədqiqat aparır, ancaq dərsdə bundan istifadə edilmir. ABŞ-da və Türкiyədə Ayкonus tipli proeкsiyalardan istifadə edilir. ABŞ-da xəritələr planşetə gətirilir.

Geodeziк və кartoqrafiк yaxınlaşma qurulur və s. Bu müsbət haldır кi, yaponlar Azərbaycana yeni topoqrafiк xəritələr tərtib etmişlər.

**«Azərbaycan Respubliкasının eкocoğrafi problemləri»** (prof. AMEA-ın müxbir üzvü Ş.Xəlilov) məruzəsində göstərildi кi, Azərbaycanda eкoloji proseslərin öyrənilməsində yeni mərhələ yaranmışdır. Həmin mərhələ ilк növbədə bir çox elmlərin eкologiyalaşması ilə yanaşı, eкoloji əsaslı elmi inteqrasiyaların yaranması ilə səciyyələnir. Bu sahədə coğrafi eкologiyanın yaranması mühüm əhəmiyyət кəsb edir.

Müəllif Azərbaycanda gedən eкoloji problemlərin təhlilinə coğrafi aspeкtdən yanaşır. O, eкosistemləri təhlil edərкən onların yerli, regional, qlobal nəticələrinə qiymət verildi. Eyni zamanda göstərdi кi, Azərbaycanın eкoloji problemləri planetar, materiк, regional proseslərlə bağlıdır. Ona görə də həmin eкoloji proseslərin coğrafi mahiyyətlərinin açılması çox mühüm əhəmiyyət кəsb edir və göstərdi кi, Azərbaycan ilк növbədə Cənubi Qafqazda gedən gərgin eкoloji proseslərin təsiri altındadır. Məsələn, Qara və Xəzər dənizi ilə bağlı yaranan eкstremal iqlim dəyişкənliкləri, Kür və Araz çaylarının Gürcüstan və Ermənistan tərəfindən çirкləndirilməsi, Qafqazın bir çox yerlərində və eləcə də Azərbaycanda meşələrin qırılması və s. кimi hallar eкocoğrafi şəraiti gərginləşdirir. Müəllif deyilənlərlə yanaşı dünya miqyasında qlobal istiliyin baş verməsində Azərbaycana birbaşa və dolayı təsirin nəticələrini də eкocoğrafi cəhətdən təhlil edir. Deyilənlərlə yanaşı müəllif qeyd etdi кi, Azərbaycanda vaxtilə yaradılan sənaye sahələri, hidroкompleкslər, irriqasiya sistemləri və s. qiymətləndirilməli və onların müasir dövr üçün yararlılıq dərəcələri müəyyən edilməlidir.

Deyilənlərlə yanaşı müasir dövrdə AMEA-da təbiəti mühafizə şöbəsi əsasında coğrafi eкologiya elmi mərкəzinin yaradılmasını; BDU-nun Coğrafiya faкültəsi Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə кafedrasında coğrafi eкologiya elmi-məкtəbinin yaranması və burada elmi-metodiкi əsasların işlənməsi və кadr hazırlığının əhəmiyyətindən bəhs etmişdir. Müəllif Azərbaycanda fövqəladə hadisələrin öy-

rənilməsi və onlardan dəyən ziyanların qarşısının alınmasında ekocoğrafi proseslərin öyrənilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini göstərdi.

**«Atmosfer sirkulyasiyasının tədqiqinin müasir üsulları» mövzusu** (dos.Ə.Məmmədov) zəngin riyazi təhlillər vasitəsilə şərh edilmişdir. Burada Zaqafqaziya ərazisini əhatə etmək məqsədilə şimal yarımkürəsində $35^0$-$55^0$-li coğrafi enliklə, $40^0$-$75^0$-li coğrafi uzunluq arasındakı ərazilər əhatə edilir. Məsələnin həlli hər təbəqədə 684-hesablama məntəqəsinin məlumatlarından istifadə olunmaqla atmosferin 833, 500, 167 mb-lıq təbəqələri qiymətləndirilir. Aparılan tədqiqatlar nəticəsində atmosferin hər üç təbəqəsi üçün meteoroloji kəmiyyət paylanmaları müəyyən edilir. Həticələrin müqayisəsi hesablama məlumatlarını qənaətbəxş hesab etməyə imkan verir.

Aparılan hesablamalar, atmosfer sirkulyasiyası modeli tədqiq edilən ərazinin iqlim tədqiqatlarında tətbiq edilməsi məqsədyönlü hesab edilir. Bu zaman Xəzər dənizinin ətraf ərazilərin iqliminin formalaşmasında rolu qiymətləndirilir. Belə ki, su səthlərinin istilik tutumu böyük olmaqla ərazidə temperaturun bir qədər yüksək olmasına şərait yaradır. Fikir tamamilə doğrudur və müəllifin nəticələri böyük marağa səbəb oldu.

Məhz ona görə də sual-cavablarda iqlim xüsusiyyətləri və atmosfer sirkulyasiyasının başlıca qanunauyğunluqları ilə əlaqələr, müzakirələr davam etmişdir.

**«Azərbaycanda Biosfer qoruqlarının təşkilinin əsas məsələləri»** mövzusunda (dos.T.O.İbrahimov) göstərildi ki, son zamanlar insan fəaliyyətinin təbiətə təsirinin artması ilə əlaqədar ətraf mühitin mühafizəsi problemi daha da kəskinləşmişdir. Bununla əlaqədar nadir landşaftların sayı azalmış və tükənmək təhlükəsi altında qalmış heyvan və bitki növlərinin qorunması və bərpası üçün Azərbaycanda bir sıra qoruq və yasaqlıqlar təşkil olunmuşdur. Hal-hazırda respublikada 151,5 min hektar ərazini əhatə edən 16 qoruq, 262,8 min hektar ərazini əhatə edən 16 yasaqlıq fəaliyyət göstərir. Respublikada qorunan ərazinin ümumi sahəsi 414,4 min hektar olub, Azərbaycan ərazisinin 4,8 %-i təşkil edir.

Lakin mövcud qoruq və yasaqlıqların fəaliyyəti ayrı-ayrı biotların qorunması və bərpası məsələsini tamamilə təmin etmir, lazımi səviyyədə etalon funksiyanı yerinə yetirmir. Ona görə də respublikada yeni kompleks qoruq növləri, yəni biosfer qoruqları yaratmaq məqsədə uyğundur. Biosfer qoruqlarının yaradılma ideyası YUNESKO proqramına uyğun yaradılır və fəaliyyət göstərir. «İnsan və Biosfer» (MAB) proqramı dünyanın bir çox ölkələrində təsdiq və müdafiə olunmuşdur.

Biosfer qoruğunun strukturu 1972-ci ildə Moskvada, keçmiş SSRİ ilə ABŞ arasında təşkil olunmuş beynəlxalq konfransa təqdim edilmişdir. Proqramda aydın göstərilmişdir ki, biosfer qoruqlarının monitorinq rolunu oynayan 3-4 qoruq sahəsi olmalıdır. Qeyd olunmuşdur ki, hər kompleks biosfer qoruğunun: 1.Ciddi qorunan sahəsi-nüvəsi; 2. Bufer zolağın nüvəsinin qorunması üçün ayrılan zonası; 3. Qoruq və ya yasaqlıqdan ibarət eksperimental zonası; 4. Təsərrüfat üçün ayrılan ətraf zonası olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycanda biosfer qoruqlarının təşkilinin əsas xüsusiyyətlərini təhlil etməyə cəhd edirik.

Biosfer qoruqları Azərbaycanda qoruq işinin təşkilində xüsusi rol oynamalıdır. Respublika Ekologiya və Təbii Sərvətlər Nazirliyi MAB-ın

müvafiq proqramına əsaslanmaqla, Azərbaycanda təbiətin qorunması işini həyata keçirir.

Apardığımız uzun illik tədqiqatlar nəticəsində Qızılağac dövləğ qoruğu və Kiçikqızılağac yasaqlığı ərazisində bir sıra problemlərin olması müəyyən edilmişdir ki, bunları ilk növbədə qoruq rejiminin yenidən təşkil edilməsi ilə həll etmək olar.

**«Yaşıllaşdırma arxitekturası, introduksiya və fitokultivasiya işlərinin ekoloji problemləri»** (dos.A.B.Dolxanov) mövzusu müasir olmaqla çoxlu sayda eksperimentlərə əsaslanmışdır. Məruzədə təklif edilir ki, yaşıllaşdırma işlərinin həyata keçirilməsində torpaqlar hazırlanmalı, ağac və kol cinsləri seçilməlidir. Eyni zamanda idarə və müəssisələrin tipindən, funksiyasından asılı olaraq ağac və kollar seçilməli, əkinlərin məsafələri, miqdarı müəyyən edilməlidir. Bundan sonra əkinin müvafiq sxemi tərtib edilməli və sxemə müvafiq olaraq texnologiyaya riayət edilməlidir.

İntraduksiya prosesinə də xüsusi hazırlıq işləri aparmaq lazım gəlir. İntraduksiya edilən ağacların xarakteristikası verilməklə yanaşı onun vətəninin torpaq, iqlim xüsusiyyətləri yerli şəraitin xüsusiyyətləri ilə müqayisə edilməlidir. Təbii-fizioloji göstəriciləri yerli şəraitə uyğun gələn növlər əsas götürülməlidir.

Qoyulan tələblərin bir qismi müəllifin Abşeronda yaratdığı şəxsi təcrübə sahəsində sınaqdan keçirilmişdir. Müəllif təklif edir ki, ekoloji şəraitə uyğun olaraq ölkəyə və regiona gətirilən ağac və kol növləri xüsusi müayinədən keçirilməli və onlara icazə verilməlidir. Məruzədə bildirildi ki, Azərbaycanda və eləcə də Abşeronda ağac və kolların intraduksiya edilməsində alimlərdən H.Əliyevin, İ.Səfərovun, V.Hacıyevin elmi-nəzəri, elmi-praktiki əhəmiyyət kəsb edən fəaliyyətləri olmuşdur.

**«Azərbaycanda antropogen landşaftşünaslığın problemləri»** (dos. Y.Qəribov) Məruzəsində müəllif bildirdi ki, antropogen landşaftşünaslıq XX əsrin elmi nailiyyətlərindəndir. Bu dövr landşaftşünaslığın intibah dövrü adlanır. Bu zaman landşaftın geofizikası, geokimyası, mühəndis landşaftşünaslığı, təbii landşaftşünaslıq və s. sahələri formalaşmışdır.

Landşaftşünaslıq məktəbləri Varonejdə, Moskvada, Sankt-Peterburqda, Asiyada, Azərbaycanda və Pribaltikada yaranmışdır. Antropogen landşaftşünaslıq coğrafiyanın bir sıra elm sahələrinin qarşılıqlı əlaqəsini əks etdirən sahəsidir. Prof.Sauşkin antropogen landşaftşünaslığı fiziki coğrafiya ilə iqtisadi coğrafiyanın ortaq predmeti adlandırmışdır.

Antropogen landşaftlar insanlar tərəfindən daima tənzimlənən, bərpa edilən, idarə edilən, müəyyən təsərrüfat funksiyalarını yerinə yetirən komplekslərdir. Belə sistemlər mədəni landşaftlar adlanır. Lakin insanların təsiri ilə təkcə mədəni landşaftlar yaranmır. Sistemsiz təsərrüfat təsirləri nəticəsində insanlar təbii landşaftın nəhəng ahəngdarlığını pozur, komponentlərarası rabitəni zəiflədir, təbii landşaftların daxilində təkrar törəmə vahidlər yaradır. Təbii landşaftşünaslığa xas olan bütün əlamətlər antropogen landşaftşünaslığın strukturunda, məhsuldarlığında əks olunur. Müasir landşaft anlayışına mədəni landşaft, antropogen landşaftlar aiddir. Antropogen landşaft təkcə sistemli, məqsədyönlü təsərrüfat təsiri nəticəsində yaradılmır. Müasir landşaft daha geniş məfhum olub bütün antropogen yükləri öz üzərində daşıyır. Azərbaycanın əsas antropogen landşaftları onun ərazisinin 80 %-dən çoxunu tutur.

İstifadə xüsusiyətlərinə görə landşaftın qruplaşdırılması aşağıdakı şəkildədir: praktiki olaraq istifadə edilməyən; epizodik istifadə edilən; qeyri-müntəzəm istifadə edilən (mövsümi); müntəzəm istifadə edilən.

Antropogen yüklərin optimallaşdırılması hər bir konkret landşaft tipində təbii landşaftların potensialına müvafiq antropogen yüklərin miqdarını müəyyən edir. Həmin yüklər normadan az olduqda antropogen landşaft onun üzərinə qoyulan sosial-iqtisadi funksiyaları yerinə yetirə bilmir. Normadan çox olduqda isə acınacaqlı ekoloji nəticələr yaranır.

Beləliklə, antropogen landşaftşünaslıq bir çox sahələrlə əlaqədar olmaqla cəmiyyətin idarə edilməsində mühüm yer tutur.

**«Böyük Qafqazın şimal-şərq yamacı əkinçilik zonası aqroirriqasiya landşaftlarının formalaşması xüsusiyyətləri»** (dis. N.S.İsmayılova) zəngin çöl materialları əsasında təhlil edilmişdir.

Məruzədə tədqiqat Qusar maili düzənliyinin və Samur-Dəvəçi ovalığının aqroirriqasiya landşaftlarının formalaşması və ekoloji problemlərinin tədqiqini əhatə edir. Həmin mövzunun yerinə yetirilməsi məqsədilə tədqiqat rayonunda hər il çöl tədqiqatları aparılmışdır. Müəllifin verdiyi məlumatlardan aydın olur ki, tədqiqat zonasında gedən geokimyəvi prosesləri öyrənmək məqsədilə landşaftın və torpağın tiplərindən nümunələr götürməklə həmin işlər müəyyən dövrlərdə təkrarlanır. Eyni zamanda ərazidə qida elementlərinin yayılması müəyyən edilir. Bununla yanaşı suvarmanın aqrolandşaftlara təsirini öyrənmək üçün bütün çaylardan, Samur-Abşeron kanalından su nümunələri götürülmüş, onların tərkibi təhlil edilmişdir.

Böyük Qafqazın şimal-şərq yamaclarının aqroirriqasiya landşaftları çoxsahəli təsərrüfat strukturu ilə fərqlənir. Bu ərazi əkinçiliyin, bağçılığın, tərəvəzçiliyin inkişaf etdiyi məhsuldar ərazidir. Bu ərazi çoxəsrlik suvarma nəticəsində qalın aqroirriqasiya horizontu, yüksək məhsuldarlığı və əlverişli meliorativ şəraitə malik olması ilə fərqlənir. Kanal və çay sularından götürülmüş nümunələrin təhlili nəticəsində müəyyən edilmişdir ki, aqroirriqasiya landşaftlarının formalaşması və ərazi differensasiyası gətirmələrin tərkibindən, miqdarından və onların çökdürmə xüsusiyyətlərindən də asılıdır. Müəllif müvafiq elmi tədqiqat institutlarının məlumatlarına da istinad etməklə ərazidə aqromeliorasiya işlərinin optimallaşdırılması haqqında maraqlı məlumat vermişdir.

Nəzəri seminarın mövzuları aktual olmaqla elmi, praktiki, elmi-metodiki mahiyyət kəsb etmişdir. Onları əsasən aşağıdakı kimi qruplaşdırırıq: Məruzələrin bir qrupu namizədlik və doktorluq dissertasiyalarının nəticələri, gələcəkdə müdafiə ediləcək dissertasiyaların tədqiqatlarına aid olan mövzulardır; ikinci qrup mövzular kafedranın elmi-tədqiqat planına daxil olan mövzulardan, üçüncü qrup mövzular fakültə əməkdaşlarının müstəqil apardıqları elmi tədqiqatları əhatə etmişdir.

Nəzəri seminarların təhlili göstərir ki, tədqiqatların əksəriyyəti elmi strateji mahiyyət kəsb edirlər.

**Prof. Ş.Y.GÖYÇAYLI**
**– Elmi-nəzəri seminarın rəhbəri**